# Volqa-Xəzər dəhlizi obyektlərinin UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi ilə bağlı müzakirələr aparılıb

Beynəlxalq Türk Akademiyasının prezidenti akademik Şahin Mustafayev İpək yolunun Serial Nominasiyası üzrə Volqa-Xəzər dəhlizi obyektlərinin UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi üçün nominasiyasının hazırlanmasına dair onlayn iclasda iştirak edib. Azərbaycan Milli Elmlər Akademiyasından AZƏRTAC-a bildirilib ki, iclasda UNESCO-nun Ümumdünya İrs Mərkəzinin, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin, Mərkəzi Asiya Araşdırmaları Beynəlxalq İnstitutunun nümayəndələri, həmçinin Qazaxıstan, Özbəkistan, Azərbaycan və Yaponiyadan olan ekspertlər iştirak ediblər.

Tədbirdə UNESCO/Yaponiya İnamlı Fondlar layihəsinin "İpək Yollarının Ümumdünya İrsi Namizədliyi Prosesinə Dəstək" layihəsinin III fazasının gedişatı müzakirə edilib.

Müzakirələr zamanı Azərbaycan nümayəndə heyətinin bu ilin sonunda Bakıda "İpək Yolu: Volqa-Xəzər dəhlizi" ikinci subregional konfransının keçirilməsi təklifi bəyənilib.

Azərbaycan.- 2024.- 1 avqust (№ 161).- S.2.